Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Həm Ermənistan, həm də Qarabağ erməniləri Azərbaycan qarşısında diz çökür...

**44 gün davam edən Vətən müharibəsindən sonra Azərbaycan Qarabağ münaqişəsinin tarixə qovuşmasına nail oldu. İndi bu konfliktlə bağlı qalan yeganə məsələ Qarabağda Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan və ermənilərin yaşadığı ərazilər üzərində Azərbaycanın nəzarətinin bərpa edilməsidir.**

Bunun üçün Azərbaycan bütün imkanlara malikdir. Elə bu fonda ermənilər özləri də etiraf edir ki, Qarabağ yaxın tezlikdə tam şəkildə Azərbaycanın nəzarətində olacaq.

**Xankəndi də Bakının nəzarətinə keçir**

Erməni tərəfi bu gün ona da xüsusi diqqət yetirir ki, Qarabağda varlıqları yalnız Rusiya sülhməramlı qüvvələrinin sayəsində mümkündür. Rusiya sülhməramlıları buranı tərk etdikdən sonra Qarabağ erməniləri ya Azərbaycan vətəndaşlığını qəbul edib burada yaşayacaq, ya da bu yerləri birdəfəlik tərk etməli olacaqlar. Elə Ermənistanın "1in.am" nəşri də məsələyə bu prizmadan yanaşır: "Ermənistanın yeni reallıqlara hazırlaşmaq üçün beş il zamana sahib olduğu barədə tez-tez danışılır. Bu dövr rus sülhməramlıların Qarabağda yerləşmə müddəti ilə "müəyyənləşir" ki, bu da beş ildir.

Məlum olduğu kimi, razılaşmaya görə, beş il tamam olmazdan altı ay əvvəl tərəflərdən biri etirazını bildirmirsə, sülhməramlıların yerləşdirilməsi avtomatik olaraq daha beş il müddətinə uzadılır. Beləliklə, Qarabağda rus sülhməramlıların mövcudluğu müddəti Ermənistanda, belə desək, nisbi cəhətdən az-çox etibarlı müddət kimi nəzərdən keçirilir, bu müddət yeni reallıqlara və problemlərə hazırlaşmaq, bərpa olmaq üçün bizə lazımdır. Bu gün Qarabağda rus sülhməramlıların mövcud olmasının sabitlik probleminin təmin edilməsi vacib hallarını şərtləndirdiyi şübhəsizdir. Lakin bütün məsələ odur ki, biz beş il zamana sahib deyilik. Biz ümumiyyətlə zamana sahib deyilik və hazırkı geosiyasi reallıqları Qarabağdakı Rusiya sülhməramlılarının yerləşdirilməsi müddəti ilə ölçmək olduqca qeyri-adekvatdır". O da etiraf edilir ki, Rusiya sülhməramlıları olmadan Azərbaycan qarşısında ermənilərin hansısa müqavimət imkanı olamayacaq. Bu fonda xatırlanır ki, Qarabağda ermənilərin hansısa ciddi hərbi qüvvəsi də yoxdur. Elə bu günlərdə də Ermənistan ordusunun Xankəndidə yerləşən birliklərinin Azərbaycanı tərk etməsini göstərən daha bir video yayılıb. Sosial şəbəkələrdə yayılan videoda ermənilərin ağır texnikanı yük maşınları ilə daşıdığı əks olunub.

Sözügedən videoda hərbi avtomobil karvanı və hərbçilərin Azərbaycan şəhərini Laçın dəhlizi ilə tərk etdiyi əksini tapıb. Ermənilər bildirir ki, bunlar fonunda, Xankəndi də daxil olmaqla, Qarabağda ermənilər qalan bütün digər ərazilərə Azərbaycan nəzarət edəcək. Qarabağdakı erməni separatçılarının keçmiş "ombudsmanı" kimi təqdim edilən Ruben Məlikyan da bunu açıq etiraf edir: "İnsanlar artıq açıq şəkildə danışır ki, iyunda Xankəndi Bakının nəzarətinə keçəcək. Hesab edirəm ki, ortada sadə bir azərbaycanlı-türkonikol (Nikol Paşinyan) anlaşması mövcuddur. İnsanlar bu səbəbdən gizlətmir ki, iyunda Xankəndi Bakının nəzarətinə keçəcək. İndi Ermənistanda hər şey edilməlidir ki, "türkonikol" seçkilərdə mümkün qədər az səs alsın. Bütün güc sərf olunmalıdır ki, seçkilərin saxtalaşdırılmasının qarşısı maksimum alınsın. Anlamaq lazımdır ki, istənilən türkonikol - düşməndir". Xatırladaq ki, 20 iyunda Ermənistanda növbədənkənar seçkilər keçiriləcək. Bu seçkilərdə məhz Paşinyanın qalib gəlməsi gözlənilir. Ermənistanda real vəziyyətin və cəmiyyətin siyasi qüvvələrə münasibətinin təhlili parçalanmış "Qarabağ klanı"nın, eləcə də digər müxalif qüvvələrin hansısa ciddi sosial dəstəyə malik olmadığını göstərir. Ermənistanda Qloballaşma və Regional Əməkdaşlıq Mərkəzinin mart ayında keçirdiyi rəy sorğusunun nəticələrinə görə, Nikol Paşinyanın ölkə üzrə reytinqi 40 faizdir. Rəy sorğusu reytinq üzrə ikinci olan sabiq prezident Robert Köçəryanın 3 faiz dəstəyə malik olduğunu göstərib. ABŞ-da mənzillənən qeyri-hökumət təşkilatı olan Beynəlxalq Respublikaçılar İnstitutunun bu ilin fevralında keçirdiyi rəy sorğusuna görə, seçicilərin 33 faizi Paşinyanın parlamentdəki "Mənim addımım" fraksiyasını dəstəkləyir. Robert Köçəryana isə cəmi 1 faiz etimad edir. "Gallup International Association" konsaltinq şirkətinin mart ayının sonunda keçirdiyi sorğunun nəticələrinə əsasən, seçicilərin 52 faizi 20 iyun seçkilərində iştirak edəcək. Onlardan 31,7 faizi Paşinyan və komandasına səs verəcək. İkinci və üçüncü yerlərdə gələn "Çiçəklənən Ermənistan" və "Maarifləmniş Ermənistan" partiyalarına isə müvafiq olaraq seçicilərin 4,4 faizi və 2,4 faizi səs verəcəyini bildirib. Bu həmin partiyaların parlamentə düşə bilmək üçün 5 faizlik baryeri belə keçə bilməyəcəklərini göstərir. Sorğuların nəticələrindən o da bəlli olur ki, digər siyasi qüvvələrə də cəmiyyət tərəfindən göstərilən etimad çox aşağıdır və əksər hallarda heç 1 faizi belə keçmir. Bu vəziyyətdə Paşinyan və komandasının seçkilərdə qalib gəlmək ehtimalı yüksək qiymətləndirilir. Müxalifətdə əsas qüvvə hesab edilən "Qarabağ klanı"nda yaşanan parçalanma Paşinyanın qalibiyyət şanslarını daha da artırır.

**Ermənistanda revanşistlərin iflası qaçılmaz durumda...**

Ekspertlər bildirir ki, Paşinyanın digər qüvvələrlə müqayisədə hələ də erməni cəmiyyətində yüksək reytinqə malik olmasının səbəbi onun revanşist mövqedən uzaq olması, daha çox Azərbaycanda imzalanmış razılıqlar əsasında əməkdaşlığa meyllənməsidir. Bir neçə müxalifət partiyasının birləşdiyi revanşist mövqeli "Vətənin xilası uğrunda hərəkat" da geniş sosial dayaqdan məhrum olduğu üçün seçkilərdə Paşinyan iqtidarına ciddi rəqib hesab edilmir. Sözügedən hərəkatın lideri Vazgen Manukyan real nüfuza və ciddi siyasi ambisiyalara malik deyil. Sorğuların nəticələrinə əsasən, cəmiyyətdə ona etimad səviyyəsi 1 faizdən aşağıdır.

Qeyd edilənlər Ermənistanda revanşist mövqedən çıxış edən müxalif qüvvələrin, xüsusən də "Qarabağ klanı"nın növbədənkənar parlament seçkilərində məğlubiyyətlərinin qaçılmaz olduğunu nümayiş etdirir. Bunu şərtləndirən başlıca səbəb revanşistlərin cəmiyyətdə ciddi dəstəkdən məhrum olmasıdır. Postseçki dövründə, "Qarabağ klanı" da daxil olmaqla, revanşist qüvvələrin mövqeyinin Ermənistanda daha zəif hala gələcəyi, onların ümumiyyətlə siyasi səhnədən silinəcəyi istisna olunmur. Klanın əsas təmsilçiləri olan sabiq prezidentlər Robert Köçəryan və Serj Sarkisyan arasında ixtilaflar və fərqli qüvvələrlə seçkilərə qatılmaları da onların zəifləməsinin əsas səbəbləri sırasında yer alır. Qeyd edək ki, Ermənistanda növbədənkənar parlament seçkiləri haqda qərar qəbul edilərkən Robert Köçəryan və Serj Sarkisyanın birləşərək blok şəklində seçkilərə qatılacaqları gözlənilsə də bu baş vermədi. Məlum oldu ki, İkinci Qarabağ müharibəsindən sonra revanşist mövqedən çıxış edən bu şəxslər və onlara bağlı qüvvələr arasında ciddi fikir ayrılığı hökm sürür. Robert Köçəryan daşnaklarla birləşib seçkilərə qatılmaq niyyətindədir və artıq bu istiqamətdə fəal iş aparır. Serj Sarkisyan və rəhbəri olduğu Respublika Partiyası isə Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri, Vətən Partiyasının sədri Artur Vanetsyanla seçki bloku yaradır. Robert Köçəryan və Serj Sarkisyanın fərqli qüvvələrlə birləşib seçkilərə qatılması "Qarabağ klanı" arasında parçalanmanın olduğunu təsdiq edir. Bu da seçkilərdə Paşinyanın qalibiyyət şansını artırır. Hesab edilir ki, Paşinyan hakimiyyətdə qaldığı halda Qarabağ məsələsinin tam həlli üçün imzalanan üçtərəfli bəyanatların şərtlərini yerinə yetirəcək. Bu, Ermənistanın iqtisadi problemlərinin həlli üçün də əsas şərtdir.

**Qarabağ erməniləri tam çarəsizdir...**

Seçkilərdə qalib gəldikdən sonra Paşinyanın Ermənistanı lazımı inkişaf müstəvisinə yönəltməsi üçün onun Qarabağ yükündən tam xilas olması vacibdir. Ekspertlər Paşinyanın məhz bu istiqamətdə fəal siyasət yürütməyə çalışacağını, Azərbaycanla, Türkiyə ilə normal münasibətlər qurmağa can atacağını proqnozlaşdırır.

Təbii ki, bu şəraitdə Qarabağ erməniləri üçün iki çıxış yolu qalacaq. Onlar ya bu yerləri tərk edəcək, ya da Azərbaycan qanunlarını qəbul edib, ölkəmizin vətəndaşları olacaqlar. Xankəndidə separatçı "deputat"lardan olan Metaxe Akopyanın Ermənistan mediasına verdiyi müsahibədə səsləndirdiyi fikirlər də bunu təsdiq edir. Onun dediyinə görə, müharibədən 6 ay keçsə də, erməni əhalisinin həyatında heç bir irəliləyiş yoxdur, əksinə, sosial problemlər artıb. Separatçı rejim isə problemlərin həlli ilə məşğul olmur, bu fonda əhalinin bölgəni tərk etməsi perspektivi aktualdır. Akopyan iddia edir ki, Xankəndi ətrafında zaman-zaman atəş səsləri eşidilir. Elə bu da erməniləri qorxudur və onların böyük əksəriyyəti mümkün qədər tez Qarabağı tərk etmək istəyir: "Rəhbərlikdən" atəşlə bağlı soruşanda bizə deyirlər ki, bu normaldır, çünki ən azından, bu şəhərin Azərbaycanın olduğunu nəzərə almalıyıq. Sülhməramlıların nə etdiyini soruşanda bildirirlər ki, onlarla danışmışıq, bunu tənzimləməyə çalışırlar". Akopyan bildirir ki, bu gedişlə Azərbaycanın Xankəndi və Qarabağda ermənilər yaşayan digər ərazilər üzərində nəzarəti ələ alması təbii proses olacaq. Qarabağ erməniləri tam çarəsiz olduqlarından, onların Azərbaycana qarşı hansısa müqavimətindən söhbət gedə bilməz. Bütün bunlar o deməkdir ki, Qarabağ məsələsi ilə bağlı proseslər tam olaraq Azəbaycanın istədiyi məcrada inkişaf edir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**